

## Xatirə XATUN

**UNUT MƏNİ BİR AZ VAXTIN OLANDA**

İndi onun vaxtı deyil, əzizim,
Unut məni bir az vaxtın olanda.
Nə xəbərdi, ay var, il var qarşıda,
Unut məni bir az vaxtın olanda.

Yad davranıb buz tutmağa tələsmə,
Sevgimizi qurutmağa tələsmə.
Bu tezliklə unutmağa tələsmə,
Unut məni bir az vaxtın olanda.

Tez sağalmır bu yaralar, bilirəm,
Sağalsa da, yeri qalar, bilirəm.
İşin çoxdu bu aralar, bilirəm,
Unut məni bir az vaxtın olanda.

Arzudu da, hər arzu ki quş deyil,
Sinən altda yuvası var, daş deyil.
Unutmaq da belə asan iş deyil,
Unut məni bir az vaxtın olanda.



**ALIŞDIĞIM ADAMSAN**

Sən mənim həyatıma gec gələn ilk baharım,
Bir az yasəmən ətri, bir az da ki dumanla.
Qışda açan çiçəyim, yaz çağı yağan qarım,
Səndən vəfalı çıxan həsrətinə zamanla
Alışdığım adamsan...

Basdırdım o sevgini, arxasınca yas tutub,
Sən gördüyün o qəlbi indi bulud, sis tutub.
Uzun gecələr boyu şəkillərinə üz tutub
Danışdığım adamsan...

Çəkir mənim səbrimi sınağa Allah yenə,
Sənə gəlib çatmadı o çəkdiyim ah yenə,
Xəyalınla gah küsüb, birdən olur,.. gah yenə
Barışdığım adamsan...

Mən qorudum bu eşqi içimdəki o qışdan,
Sənə xəbər yolladım küləklərdən, yağışdan,
Zənglərini açmayıb sonra dostdan-tanışdan
Soruşduğum adamsan...

Zaman yaddaşımızdan bir gör nələri sildi,
Amma yadigar qalan məktublardı, şəkildi.
“Kim daha tez unudar” – deyə gör neçə ildi
Yarışdığım adamsan...
Yarışdığım adamsan...

## MƏN SƏNƏ YAZMIRAM ŞEİRLƏRİMİ

Deyim, qoy bu qədər olma nigaran,
Mən sənə yazmıram şeirlərimi.
Yazıram ilhamım , “yaz” deyən zaman,
Mən sənə yazmıram şeirlərimi.

Çiçəyə yazıram, quşa yazıram,
Ağaca yazıram, daşa yazıram,
Payıza yazıram, qışa yazıram,
Mən sənə yazmıram şeirlərimi.

Nəyimə lazımdı köməyin axı?
“Hələ qəlbimdəsən” deməyin axı?
Nahaq oynamasın ürəyin, axı
Mən sənə yazmıram şeirlərimi!

Bir vaxt yer almışdın dualarımda,
Yazım da sən idin, son baharım da.
Axtarma özünü misralarımda,
Mən sənə yazmıram şeirlərimi.

Sən atılmış liman, mən uzaq ada,
Dönmüsən mənimçün özgəyə, yada.
İnan, yuxumda da düşmürsən yada,
Mən sənə yazmıram şeirlərimi.

Çalış ki, hər nə var, dadında saxla,
Hörməti, izzəti adında saxla.
Bunu da yazıram, yadında saxla-
Mən sənə yazmıram şeirlərimi,
Mən sənə yazmıram şeirlərimi!

## SAĞLIĞINA İÇİRƏM

Mən də belə sevmişdim, ağasıydım sözümün,
Səninsə heç olmadı dəyanətin, dözümün.
Bu sevdanın önündə vicdanımın, üzümün
Ləkədən qoruduğum ağlığına içirəm,
Sağlığına içirəm...

Susaraq danışıram... bu da olsun cavabın,
Məni peşmanlıq boğur, səni – vicdan əzabın,
Xatirən dibindədi bircə qədəh şərabın,
Mən də o xatirənin varlığına içirəm,
Sağlığına içirəm...

Rahat ol, mən kimsəyə söz etmədim adından,
Sən kimisi nə anlar şərab kimi qadından?
Elə gözəl, astaca çıxırsan ki yadımdan,
Ürəyimi dolduran yoxluğuna içirəm,
Sağlığına içirəm...
Sağlığına içirəm...

## SƏNDƏN AYRI

Səndən ayrı bu ömrün yazı keçdi qış kimi,
İntizarın oturub ürəyimdə daş kimi.
Hər səni görən zaman qanadlanıb quş kimi
Uçmazdımmı?
Uçardım...

Hardan gəldi, bilmədim, bu qədər istək sənə,
Bağlanmışdım ən əziz, ən doğma kəstək sənə.
Hamıdan gizlətdiyim hər sirrimi tək sənə
Açmazdımmı?
Açardım...

Təşnəyəm sənlə keçən ömrümün hər anına,
Bu həsrəti, de, necə yollayım ünvanına?
Baş götürüb hamıdan təkcə sənin yanına
Qaçmazdımmı?
Qaçardım...

Sənsiz ötən bu illər, bilmirəm, keçdi necə,
Beşi birinə dəyməz, biri də ki... eh... heçə.
Arzulayıb yuxumda xəyalını hər gecə
Qucmazdımmı?
Qucardım...

Səndin könül dünyama tək bəzək, tək yaraşıq,
Sən yuxuda butamsan, mənsə sərsəri aşıq.
Gəlsəydin, əvvəlkitək hər tərəfə nur, işıq
Saçmazdımmı?
Saçardım...

Ötüb getdi bu sevda bir dəli külək kimi,
Bircə gün ömrü olan zərif kəpənək kimi…
Gəlsən, yenə bu eşqdən səhrada çiçək kimi
Açmazdımmı?
Açardım...